# "Ü M İ D" SOSİAL İNKİŞAFA DƏSTƏK İCTİMAİ BİRLİYİ

İNFORMASIYA BÜLLETENİ №1, 2012

## "Ümid" SİD yeni 5 illik layihənin - "Azərbaycanda Sosial-İqtisadi İnkişaf Fəaliyyəti" (SEDA) layihəsinin icrasına başladı

***SEDA-nın mesajları:***

***Əməkdaşlığın genişləndirilməsi***
***İqtisadi imkanların yaradılması***
***Bacarıqların artırılması***
***Vətəndaş cəmiyyətinin cəlbi***

Amerika Birləşmiş Ştatları İnkişaf Agentliyi və Azərbaycan Hökumətinin birgə maliyyə dəstəyi ilə həyata keçirilən **Sosial-Iqtisadi İnkişaf Fəaliyyəti (SEDA)** layihəsinin icrasına 2011-ci ilin oktyabr ayında "Ümid" SİD İB-nin Baş Ofisində Şərq-Qərb İdarəetmə İnstitutu, "Ümid" SİD İB, İqtisadi Araşdırmalar Mərkəzi və Qeyri-kommersiya Hüququ üzrə Beynəlxalq Mərkəz təşkilatının Rəhbərliyi və aparıcı işçilərinin iştirakı ilə layihənin təqdimatı ilə başlanılmışdır.

***SEDA-nın şüarı:** Regional inkişaf naminə vətəndaşların iştiraklılığının artırılması*

*Yeni bir layihə həyata keçirmək üçün bizim kəndimizin hədəf icma kimi seçilməyi bir kənd ağsaqqalı olaraq məni çox sevindirir və ruhlandırır. Layihə rəhbərliyi bizə etimad göstərdikləri üçün kənd camaatı adından onlara təşəkkür edirəm və Sizi əmin edirəm ki, bu layihə ərzində üzərimizə düşən öhdəlikləri həvəslə yerinə yetirəcəyik.*

*82 yaşlı İmişli rayonu Oruclu kənd sakini*
*Şamxal Aslanov*

SEDA layihəsinin 1-ci ilində layihə fəaliyyətlərinin 2 regionda—Aran və Şimal regionlarında həyata keçirilməsi planlaşdırılır. Layihə üçün hədəf icmalar daha öncə "Ümid" SİD-nin başqa layihələri çərçivəsində səfərbər olunmuş icmalar ("köhnə" icmalar) içərisindən və ya indiyə qədər icma inkişafı üzrə heç bir layihənin hədəfi olmayan icmalar ("yeni" icmalar) içərisindən seçilmişdir. Layihə dövründə hədəf regionlarda icmaların müəyyənləşdirilməsi üçün məlumatlar toplanması məqsədilə müxtəlif araşdırma metodlarından (internet, təşkilatlar arası informasiya mübadiləsi, hesabatlar və s.) istifadə edilməklə araşdırmalar aparılmışdır. Araşdırmalar zamanı əldə edilmiş məlumatlar əsasında icmaların ilkin məlumat bazası hazırlanaraq təhlil edilmişdir. Aparılmış təhlillərin nəticələri ŞQİİ-nun rəhbərliyi ilə müzakirə edilərək, SEDA layihəsində əməkdaşlıq üçün hədəf icmalar seçilmişdir. "Köhnə" icmalar kimi seçilmiş hədəf icmalarda (Sabirabad rayon Əhmədabad, İmişli rayonu Oruclu, Quba rayonu Zərdabi, Xaçmaz rayonu Aşağı Zeyid, Şabran rayonu Şahnəzərli icmaları) yerli Bələdiyyə sədrləri, İcra nümayəndələri və icma fəalları ilə görüşlər təşkil edilmiş, icmalarda daha öncə həyata keçirilmiş layihələrin, İcma Qrupu və İcma Fondunun mövcud vəziyyəti, həmçinin icmalarla dövlət və özəl sector arasında əlaqələrin səviyyəsi müzakirə edilmişdir.



*Quba rayonunun Zərdabi icmasında layihə barədə məlumatın verilməsi məqsədilə görüş*

Həmçinin, SEDA layihəsi barədə ətraflı məlumat vermək, gələcək əməkdaşlığı müzakirə etmək, İcma İnkişaf Şuralarının seçim meyarları və öhdəliklərini tədbir iştirakçılarının nəzərinə çatdırmaq üçün hədəf kimi seçilmiş "köhnə" icmalarda yerli Bələdiyyə sədrləri, İcra nümayəndələri və icma üzvlərinin iştirakı ilə ümumi icma yığıncaqları keçirilmişdir.

Aran və Şimal regionları üzrə "yeni" hədəf icmaların seçimi icmalarda əməkdaşlığa dəvət məktublarının paylanması və bu məktublara uyğun olaraq icmalar tərəfindən maraq məktublarının təqdim olunması ilə həyata keçirilmişdir. Maraq məktubları təqdim etmiş icmalar haqqında məlumatlar Seçim Komissiyası tərəfindən qiymətləndirilmiş və SEDA layihəsində əməkdaşlıq üçün "yeni" icmalar seçilmişdir ki, bunlar: Sabirabad rayonunun Qaralar, Zəngənə və Qaraqaşlı icmaları, Şabran rayonunun Taxtalar, Əmirxanlı və Pirəmsən, Quba rayonunun İspik, Qonaqkənd, Alpan və Qəçrəş icmaları və İmişli rayonunun Çahar, Ağammədli, Əliyetməzli və Nurulu, Xaçmaz rayonunun Çarkı, Arzu və Ağçay, Beylaqan rayonunun Aşağı Çəmənli, Aşıqalılar və İmamverdili icmalarıdır.

## Bu sayımızda:


| | |
|---|---|
| *"Ümid" SİD yeni 5 illik layihənin icrasına başladı* | 1 |
| *Qaçqın, məcburi köçkün və sığınacaq axtaranlara qayğı davam etdirilir* | 2 |
| *"Gənclərin İqtisadi Bacarıqlarının Artırılması" layihəsi uğurlu finala doğru* | 4 |
| *Süd və Süd Məhsulları İstehsalçılarına İcma Əsaslı Dəstək* | 5 |
| *"Ümid" SİD Coca-Cola ilə əməkdaşlığa başlamışdır* | 6 |
| *Qafqazda Mədəniyyətlərarası Əməkdaşlığa Dəstək* | 6 |

# Qaçqın, məcburi köçkün və sığınacaq axtaranlara qayğı davam etdirilir

**"Azərbaycanda məskunlaşmış qaçqın və sığınacaq axtaranlar üçün peşə təlimi"** layihəsi Birləşmiş Millətlər Təşkilatının Qaçqınların İşi üzrə Ali Komissarlığının (BMT QAK) maliyyə dəstəyi ilə 2012-ci ildə də fəaliyyətini uğurla davam etdirir. Layihənin əsas məqsədi hədəf qrupun iqtisadi imkanlarını yaxşılaşdırmaqdan ibarətdir. Bu məqsədə aşağıdakı fəaliyyət istiqamətləri vasitəsilə nail olunur:

***BMT QAK-nın 2011 ilin sonunda apardığı sorğunun nəticələrinə əsasən Azərbaycanda qaçqın və sığınacaq axtaranların sayı 1750 olmuşdur. Bunların əksəriyyəti Çeçen respublikası, digərləri isə Əfqanistan, İran, İraq, Pakistan və digər ölkələrin keçmiş vətəndaşlarıdır. Bu ailələrin çoxu Bakı şəhərində müvəqqəti sığınacaq tapıb və heç birinin daimi yaşayış yeri yoxdur. Onların sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq imkanları məhduddur.***

**1) Qaçqın və sığınacaq axtaran gənclərin peşə bacarıqlarınnı artırılması:**

Bu il ərzində, layihə üzrə 25 nəfərin Usta Yanında Şagird Hazırlanması (UYŞH) kurslarına cəlb edilməsi nəzərdə tutulmuşdur.



*Qadın-bərbəri sahəsində təlim*

İlkin olaraq, UYŞH komponentinin mahiyyəti, məqsədi və əsas yanaşma prinsipləri barədə Qaçqın Qadın və Gənclər Mərkəzində (QQGM) təşkil olunmuş görüşlərdə məlumat verilmişdir. Bu görüşlərdə Çeçen və qeyri-Çeçen icmaların liderləri, valideynlər və eləcə də mərkəzə gələn xarici qonaqlar da iştirak etmişdilər. Görüş iştirakçılarına bu ildən başlayaraq yeni müasir peşə sahələri üzrə də kursların təşkili barədə məlumat verilmişdir. Kursların təşkili ilə əlaqədar elanlar verilmişdir.
Nəticə etibarilə, bu ilin birinci rübü ərzində UYŞH kurslarında iştirak etmək üçün 29 gənc qız və oğlan 10 peşə sahəsi üzrə müraciət etmişlər. Müraciətlərin təhlili göstərir ki, gənclər tibb bacısı işi, avto-diaqnostika, modelyer-dizayner, interyer-dizayner və s. müasir peşələrə maraqlıdırlar. UYŞH komponentinin seçım meyarlarına uyğun olaraq, mart ayından başlayaraq 4 nəfər gənc oğlan və qız 3 peşə sahəsi üzrə 2-4 aylıq kurslara cəlb edilmişlər. Hal-hazırda kurslar və eyni zamanda, yeni gənclərin kurslara cəlb edilməsi üzrə fəaliyyətlər davam etməkdədir.

**2) Qaçqın və sığınacaq axtaranların kompüter, o cümlədən internetdən istifadə etmək bacarıqlarının artırılması:**

Bu il ərzində, layihə üzrə 40 nəfərin kompüter bacarıqlarının artırılması, 200-250 nəfərə internet xidmətindən istifadə etmək imkanlarının yaradılması nəzərdə tutulmuşdur.
Müraciət edənlərin təkliflərini nəzərə alaraq, bu ilin ikinci rübündən başlayaraq Corel Draw dizayn proqramı üzrə kurslar təşkil olunacaq.
Eyni zamanda, MS Office və Adobe Photoshop proqramlarının tədris proqramları təkmilləşdirilmişdir. Belə ki, bu ildən başlayaraq MS Office proqramı üzrə tədris 2007-ci ilin versiyasına uyğun aparılır, Photoshop proqramı üzrə isə tədris planına yeni komponentlər əlavə edilib.
Layihə ilinin birinci rübündə, kompüter təlimlərinə müraciətlərin sayı 21 olmuş, o cümlədən MS Office 2007 proqramı üzrə 10, Photoshop proqramı üzrə 11 nəfər müraciət etmişdir.
116 nəfər internetdən istifadə etmək məqsədilə kompüter mərkəzinin imkanlarından istifadə etmişdir. İnternet imkanlarından daha səmərəli istifadə etmək üçün istifadəçilərə əlverişli yollar, onların marağına uyğun gələn yeni saytlar barədə məlumatlar, yeni istifadəçilərə internet ünvanı açmaq, saytlarda qeydiyyatdan keçmək yollarına dair bilgilər verilmişdir.
Birinci rübün sonuna qədər, 5 nəfər gənc kompüter kurslarını bitirərək sertifikatlarla təltif edilmişdir.



*Ofisdə internet xidmətindən istifadə*

**3) Qaçqın və sığınacaq axtaran ailələrin uşaqları üçün beynəlxalq yay düşərgəsinin təşkili:**

***Hal-hazırda, BMT QAK-ın maliyyə dəstəyi ilə icra edilən layihələr əsasən aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:***

1. ***İcma İnkişafı***
2. ***İqtisadi İmkanların Genişləndirilməsi***
3. ***Humanitar yardımların paylanmasının koordinasiyası***

Uşaqlar hər cəmiyyətin ən dinamik və fizioloji cəhətdən uyğunlaşmış bir seqmentidir. Müxtəlif mədəniyyətlərdən olan, öz adət-ənənələrinə riayət edən uşaqların bir araya gəlməsi, biri-biri ilə qaynayıb qarışması, ünsiyyətə qirməsi, qarşı mədəniyyətə hörmətlə yanaşmaq və bu yolla onlarda köhnə stereotipləri dağıtmaq üçün ümumi bir platformanın yaradılması zəruridir. Beynəlxalq yay düşərgəsinin təşkili belə bir platformanın yaradılmasında effektiv mexanizmlərdən biridir. Beynəlxalq düşərgə Açıq Cəmiyyət İnstitutu Yardım Fondunun maliyyə dəstəyi ilə həyata keçirilən "Qafqazda mədəniyyətlərarası əməkdaşlıq" proqramının iştirakçıları – "Ümid" SİD, "Buta" Humanitar Uşaq Fondu, "İnquşetiyanın müəllimlər və repetitorlar assosiasiyası" Regional İctimai təşkilatı və "Stimul" Çeçenistanın Regional İctimai təşkilatı tərəfindən təşkil ediləcəkdir. Düşərgəyə hər bir təşkilat 8 uşaq cəlb edəcək. İyun ayında təşkil ediləcək beynəlxalq düşərgənin müddəti 10 gün olacaqdır.

BMT QAK-ın maliyyə dəstəyi ilə 2012-ci ildə uğurla davam etdirilən **“Gənclər üçün gəlir və iş imkanlarının artırılması yolu ilə Azərbaycandakı məcburi köçkünlərə dəstək”** layihəsinin hədəfi Sumqayıt ərazisində məskunlaşmış məcburi köçkünlər, xüsusən də gənclərdir. MK və Qaçqınların İşi üzrə Dövlət Komitəsindən alınmış 21 dekabr, 2011-ci il tarixinə olan məlumata görə Sumqayıt ərazisində məskunlaşmış MK-lərin sayı 51,179 nəfərə qədərdir. 2012-ci ilin 1-ci rübü ərzində layihə məqsədlərinə nail olmaq üçün fəaliyyətlər iki istiqamətdə həyata keçirilmişdir:

**1) MK gəncləri peşə təlimi kurslarına və biznes təlimlərinə cəlb etməklə onların gəlir və məşğulluq imkanlarının artırılması:**

*Dağlıq Qarabağ müharibəsilə əlaqədar olaraq, Azərbaycan Hökumətinin müraciəti əsasında, 1992-ci ilin sonlarından BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığı (BMT QAK) ölkəmizdə fəaliyyət göstərməyə başlamışdır. “Ümid” SİD isə BMT QAK-la 1999-cu ildən əməkdaşlıq etməyə başlamış və qaçqın, məcburi köçkün və sığınacaq axtaranların həyat şəraitlərinin yaxşılaşdırılması, onların sosial problemlərinin həll edilməsi, təhsil və gəlir imkanlarının yaxşılaşdırılması istiqamətlərdə onlarla fəaliyyəti müvəffəqiyyətlə həyata keçirir.*

Sumqayıt şəhərində, eyni zamanda şəhərətrafı ərazilərdə - Tağıyev və Ceyranbatan qəsəbələrində, Sarıqaya və Yaşıldərə massivlərində müvəqqəti məskunlaşmış 23 məcburi köçkün icmalarında layihə barədə görüşlər keçirilmişdir. Cəmi 220 nəfərin iştirak etdiyi bu görüşlərdə icma üzvlərinə layihə barədə ətraflı məlumat verilmiş, layihənin mahiyyəti və məqsədi barədə izahatlar verilmiş, eyni zamanda insanların müxtəlif tipli sənətlərə olan ehtiyacları müəyyənləşdirilmiş və məcburi köçkün gənclərin həmin sənətlərə maraqlarını nəzərə alaraq həmin ərazilərdə elanlar vurulmuşdur.



*Qadın-bərbəri sahəsində təlim*

Rüb ərzində icmalardan yığılmış ərizələrin çoxluğu sübut edir ki, məcburi köçkün gənclərin müxtəlif sənətlərə olan ehtiyacları hələ də mövcuddur. Icmalardan yığılmış sorğu blankları təhlil edilərək, layihə çərçivəsində peşə təlimi kurslarına cəlb olunmaq üçün kişi bərbəri sahəsinə - 3 şagird, qadın bərbəri sahəsinə - 3 şagird, kompüter təliminə isə 8 şagird seçilmiş və mart ayının 1-dən təlimlərə başlamışlar. Təlimlərin normal şəraitdə keçirilməsi üçün, şagirdlər avadanlıq və materiallarla təmin edilmiş, peşə təlimi kurslarının müasir dövrün tələblərinə uyğun keçirilməsi üçün tədris proqramları təkmilləşdirilmiş və təlimlərə yenicə başlamış ustalara bəzi məsləhətlər verilmişdir.

**2) MK gənclərin kompüter bacarıqlarının artırılması, faydalananların bilik və bacarıqları üzrə məlumat bazasının hazırlanması:**

Peşə təlimi kursları ilə paralel olaraq, icmalarda və MK məktəblərində yeniyetmə və gənclərlə görüşlər keçirilmiş, onların kompüter bacarıqlarının artırılması məqsədilə ofisdə təşkil olunan kurslar və internet təlimləri barədə məlumat verilmişdir. Kompüter sahəsinə verilmiş ərizələrin çoxluğu gənclər arasında bu sahəyə olan marağın nə qədər çox olmasının göstəricisidir.



*“Ümid” SİD İB-nin Sumqayıt ofisində MK gənclər üçün kompüter təlimi*

2012-ci ilin yanvar-mart ayları ərzində, 8 nəfər məcburi köçkün gənc MS Office və Adobe Photoshop proqramları üzrə təlimlərə cəlb olunmuş, onlardan 4 nəfəri MS Office proqramları üzrə təlimləri başa vuraraq sertifikatlar almışlar. Kompüter təlimləri həftədə 2 dəfə və 1,5 saat olmaqla “Ümid” SİD İB-nin Sumqayıt ofisində həyata keçirilir. Ötən illərdə, şagirdlərə MS Windows, Word, Excel, Power Point, Paint proqramları və İnternet Explorer proqramında işləmək yolları öyrədilirdisə, artıq onların istəyi ilə təlim proqramı bir daha təkmilləşdirilmiş və əlavə olaraq, Adobe Photoshop və Outlook Express proqramları haqqında ilkin məlumatlar da təlim proqramına daxil edilmişdir. İşimizin müsbət nəticəsidir ki, təlimləri bitirən müdavimlərin əksəriyyəti müxtəlif yerlərdə iş tapırlar. Hal-hazırda kompüter təlimi alan Xələc icmasında yerləşən məcburi köçkün məktəbinin ibtidai sinif müəllimməsi Əliyeva Aynur kompüter təlimlərini bitirib sertifikat aldıqdan sonra, məktəbin informatika dərslərini tədris edəcəkdir. Kompüter kurslarının digər bir iştirakçısı - Cavadova Vəfa imtahandan keçərək işə qəbul olunmuş və hal-hazırda işləyir.



*Kişi-bərbəri sahəsində təlim*

Həmçinin, bu rüb ərzində, məcburi köçkün gənclər “Ümid” SİD İB-nin ofisində təşkil edilən pulsuz internet xidmətlərindən də faydalanmışlar. Fevral-mart ayları ərzində, 18 nəfər yeniyetmə və gənc ofisdə təşkil olunan internet xidmətlərindən istifadə etmiş və bu sahədə müxtəlif məsləhətlər almışlar.

# *“Gənclərin İqtisadi Bacarıqlarının Artırılması” layihəsi uğurlu finala doğru*

2010-cu ilin noyabr ayından BP və Tərəfdaşlarının maliyyə dəstəyi ilə icrasına başlanılmış “Gənclərin İqtisadi Bacarıqlarının Artırılması” layihəsi artıq bitmək üzrədir. Hazırda layihə üzrə fəaliyyətlər müvəffəqiyyətlə yerinə yetirilir. Rüb ərzində, fəaliyyətlərin icrası zamanı uğurlu nəaliyyətlər əldə olunmuşdur.

Belə ki, 01 yanvar – 31 mart, 2012-ci il müddətində Usta Yanında Şagird Hazırlığı kurslarında iştirak etmək üçün 12 peşə sahəsi üzrə 46 nəfər ərizə ilə müraciət etmişdir. Kursa cəlb olunmuş gənclərdən 93 nəfəri (bunlardan 6 nəfəri gənc usta) 16 peşə sahəsi üzrə kursu müvəffəqiyyətlə bitirmiş və onlara sertifikat təqdim olunmuşdur.



*Qadın-bərbəri sahəsində təlim*

Ümumilikdə, layihə üzrə 219 nəfər UYŞH kursuna cəlb olunmuş və kursları müvəffəqiyyətlə bitirmişdir. Kursu bitirmiş gənclərdən 105 nəfəri iş tapmışdır. Bəzi gənclər öz ustalarının rəğbətini qazanaraq öyrəndikləri peşə sahələrində qalıb işləyirlər. Bunlardan Vəliyev Teymur "Hunday servis"də Avto-çilingər sahəsini qısa müddətdə yaxşı öyrəndiyi və müştərilərə yaxşı xidmət göstərdiyi üçün servisin rəhbəri onu işə qəbul etmişdir. Şükürov Vüsal və Xankişiyev Orxan da Aşpaz sahəsini öyrəndikləri “İnternational Catering“ MMC (Cest Bon) sahəsində qalıb aşpaz köməkçisi işləyirlər. Digər uğurlardan biri - 5 yanvar, 2011-ci il tarixində “Kompüter şəbəkə avadanlıqlarının qurulması və idarə olunması (CİSCO-CCNA)” üzrə UYŞH kursuna cəlb olunmuş Xasıyev Sənan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin “Tikilməkdə olan Obyektlərin Müdriyyəti” idarəsində Kompüter Mütəxəssisi vəzifəsində işə qəbul olunub.

Rüb ərzində, kursları bitirmiş gənclərə və gənc ustalara 4 mövzuda 8 təlim - “Biznes planın hazırlanması”, “Marketinq, “Xidmət” və “Fiziki şəxs olaraq Vergi Ödəyicisi kimi qeydiyyatdan keçmə” (VÖEN) təlimləri verilmişdir. Təlimlərin nəticəsi olaraq 9 nəfər Fiziki şəxs olaraq Vergi Ödəyicisi kimi qeydiyyatdan keçmişdir (VÖEN almışdır). Biznes qurmaq istəyən gənclərdən Möhkəm Başlanğıclı İqtisadi Layihə (MBİL) qrantı almaq üçün müraciət etmiş 34 nəfərdən 18 nəfərə 6552 AZN dəyərində qrant verilmişdir.

Rüb ərzində, gənclərin elmə, təhsilə, təbiətə (ekologiyaya) marağını daha da artırmaq, istedadlı gənclərin bacarıqlarını aşkara çıxarmaq, onları ruhlandırmaq, milli adət-ənənələri qoruyub saxlamaq və gənc nəsillərə ötürmək məqsədilə, layihə çərçivəsində təşkil edilmiş sosial kompaniyalar kimi Tovuz rayonunun Aşağı Mülkülü icmasında “Məktəblilər arasında bilik yarışının keçirilməsi”, Qaradağ rayonu Ümid icmasında “Məktəbdə yaşıllığın yaradılması, ərazidə ekoloji şəraitin yaxşılaşdırılması”, Qaradağ rayonu Səngəçal icmasında "İcmada olan zibilliklərin ləğv edilməsi”, Ağstafa rayonu Qıraq Kəsəmən icmasında “Məktəblilər-arası inşa müsabiqəsinin keçirilməsi”, Zəlimxan İcmasında “İcmada Novruz şənliyinin keçirilməsi” və Saloğlu icmasında “Gənc istedadların konsertinin təşkili”, Samux rayonu Yuxarı Ağasıbəyli icmasında “İcmada Novruz şənliyinin keçirilməsi” layihələri həyata keçirilmişdir.

Layihə çərçivəsində gənclər arasında müxtəlif yarışlar keçirməklə elmə, təhsilə və təbiətə maraq daha da artırılmış və ruhlandırılmışdır. Bunlarla yanaşı, icma üzvləri arasında ekoloji tədbirlər də həyata keçirilmişdir. Tədbirlər zamanı İcmada olan zilbilliklər təmizlənmiş, ağac, həmişə yaşıl gül kolları əkilmiş və abadlaşdırılmışdır. Abadlıq işləri ilə yanaşı İcma üzvlərinə təbiətin/ekologiyanın qorunması haqqında müvafiq tövsiyyələr verilmişdir.



*Tovuz rayonu Aşağı Mülkülü icmasında*
*Bilik yarışması qaliblərinin mükafatlandırılması*

Birləşmiş Büdcə Metodu vasitəsilə (bərabər maliyyə vəsaitinin cəlb edilməsi - 50% yerli İcra Hakimiyyəti, Bələdiyyə, İcma və s., 50%-i isə BP və Tərəfdaşları) hədəf icmalarda xidmət mərkəzlərinin tikilməsi və inkişaf etdirilməsi istiqamətində işlər davam etdirilmişdir. Belə ki, rüb ərzində, iki layihənin - Goranboy rayon Veyisli icmasında həyata keçirilən “İcma Xidmət Mərkəzinin təmiri və gəlir gətirən xidmət sahələrin yaradılması” və Bakı şəhər Qaradağ rayon Sənqəçal icmasında həyata keçirilən “Məişət tullantılarının toplanması və daşınması məntəqələrinin yaradılması” layihələrinin icrası uğurla sona çatmışdır. Bununla yanaşı, digər donor tərəfindən təsdiqini tapmış və icrası üçün tender keçirilmiş aşağıdakı layihələrin artıq icrasına başlanılmışdır və hazırda icmalarda tikinti işləri uğurla davam etdirilir:

- Qaradağ rayonu Ümid İcması - “İcma Xidmət Mərkəzinin təmiri və gəlir gətirən xidmət sahələrin yaradılması” layihəsi
- Samux rayonu Yuxarı Ağasıbəyli İcması - “İcma Xidmət Mərkəzinin tikilməsi” layihəsi
- Goranboy rayonu Faxralı İcması - “İcma Xidmət Mərkəzinin tikilməsi” layihəsi
- Şəmkir Rayonu Sarıtəpə və Dəllər Daşbulaq icmaları - “İcma Xidmət Mərkəzinin tikilməsi” layihəsi

# Süd və Süd Məhsulları İstehsalçılarına İcma Əsaslı Dəstək

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi və BP və Tərəfdaşlarının birgə maliyyəsi ilə həyata keçirilən bu layihə üzrə əvvəlki rüblərdə olduğu kimi, 2012-ci ilin bu rübündə də İş Planına uygun olaraq nəzərdə tutulmuş fəaliyyətlər yerinə yetirilmişdir. Bunlar əsasən maarifləndirmə, Dəstək Mərkəzləri (DM) ilə əlaqələndirmə, Süd Toplama Mərkəzlərinin (STM) qurulması və fəaliyyətinin təşkili olmuşdur. Hədəf icmalarda Yerli İcra nümayəndəsi, Bələdiyyə Sədri, İcma lideri və icma üzvləri ilə layihənin həyata keçirilməsinə dair müzakirələr aparılmış, əldə olunmuş uğurlar, qarşıya çıxan çətinliklər öyrənilmiş və fəaliyyətlərin təşkilində nəzərə alınmışdır.

*ABŞ BİA-nın nümayəndələri Layihələrin İdarə Olunması üzrə Köməkçi Ülkər Ələkbərova və Tbilisi ofisindən Kənd təsərrüfatı offiseri Robin Stevens hədəf icmalara səfər etmiş və STM -nin fəaliyyəti ilə yerində tanış olmuşlar.*

İstehsal olunan və satılan südün keyfiyyətinin və həcminin artırılması üçün hədəf icmalarda fermerlərə ehtiyaclara uyğun olaraq "Uçotun aparılması", "Kredit və kreditə müraciət", "Təşəbbüs qruplarının yaradılması" mövzusunda 10 təlim verilmişdir.



*ABŞ BİA-nın nümayəndələri STM-nə səfər edərkən*

Süd istehsalçılarına ərazidə fəaliyyət göstərən yem istahsalı müəssisələri, kredit təşkilatları, banklar və onların xidmətləri və digər DM-i haqda məlumatlar verilmişdir.

Kredit xidmətləri gostərən "Parabank"-ın nümayəndələrinin beş hədəf icmada (Nemətabad, Veyisli, Seyidlər, Mollacəlilli, Sarıtəpə) fermerlərlə görüşü keçirilmişdir. Görüşlərdə sahibkarlara Kömək Milli Fondunun vəsaiti hesabına illik 6-7%-lə verilən Aqrokreditlər (heyvandarlıq, əkinçilik, bağçılıq, quşçuluq) haqda məlumat verilmişdir. Həmçinin, Samux rayon Seyidlər icmasında süd istehsalçılarına "Aqromexanika" Elmi Tədqiqat İnstitutunun baş mütəxəssisi tərəfindən yem üyüdən və ot xırdalayan qurğular nümayiş etdirilmişdir.

Ümumilikdə, DM-i ilə keçirilmiş 6 görüşdə 7 nəfəri qadın olmaqla 146 nəfər fermer iştirak etmişdir. Artıq aqrar kreditlər üçün Seyidlər icmasından 6 nəfər "Parabank"a müraciət etmiş, onlardan 5-nin sənədləri təsdiq üçün Bakıya göndərilmişdir.

Süd istehsalçılarının bazara çıxışlarının yaxşılaşdırılması üçün rüb ərzində hədəf icmalarda STM-nin qurulması prosesi davam etdirilmişdir. Şəmkir rayon Sarıtəpə icmasında STM-i quraşdırılıb başa çatdırılmışdır. Ucar rayon Bərgüşad və Kürdəmir rayon Qarabucaq icmalarında quraşdırılacaq STM-nin elektrik şəbəkəsinə qoşulması üçün Texniki şərt alınmış və texniki şərtdə göstərilən avadanlıqlar alınaraq REŞ-ə təhvil verilmişdir. Bu STM-nin qurulması, istismarı və idarə olunmasında əməkdaşlıq olunması üçün AZERSUN HOLDİNG-in Kürdəmir Süd Zavodu ilə müzakirələr aparılmış və memorandum imzalanmışdır.

Qış fəsli olmasına baxmayaraq, rüb ərzində Seyidlər və Nemətabad STM-i fəaliyyətlərini davam etdirmişlər. Seyidlər icmasında 85546 litr, Nemətabad icmasında isə 22564 litr keyfiyyətli xam süd toplanaraq SEM-nə satılmışdır.

SEM-nə süd satışından Nemətabad icmasında 10153 manat, Seyidlər icmasında isə 38495 manat gəlir əldə edilmişdir. Ümumilikdə, 110 təsərrüfat orta hesabla hər ay 100-150 manat gəlir əldə etmişdir. Əldə olunan gəlir ailələrin gündəlik tələbat xərclərinin ödənilməsinə, sosial məişət şəraitinin yaxşılaşdırılmasına və daha çox, keyfiyyətli sud istehsal etmək üçün təsərrüfatların inkişafına sərf olunmuşdur.

Bütün bunların nəticəsidir ki, artıq həmin icmalarda əvvəllər malqarası olmayan ailələr də indi südlük heyvanlar alaraq heyvandarlıqla məşğul olmağa başlamışlar.

Süd və süd məhsulları istehsalçılarının xərclərini azaltmaq, bazara təsir imkanlarını çoxaltmaq, müxtəlif müəssisələrlə daha asan əməkdaşlıq etmək, bu sahədə dövlətin dəstəyinə nail olmaq məqsədi ilə Seyidlər, Mollacəlilli, Sarıtəpə, Nemətabad və Veyisli icmalarında bərabər hüquqlu qadın və kişilərdən və eyni təsərrüfat fəaliyyəti ilə məşğul olan süd istehsalçılarından təşkil olunmuş təşəbbüs qrupları yaradılmışdır. Bu icmalarda təşəbbüs qruplarının yaradılmasına dair seminarlar keçirilmişdir.

Fəaliyyət müddətində, layihənin işçi heyəti hökumət orqanları, özəl qurumlar və QHT ilə sıx əməkdaşlıq şəraitində işləmişdir. Süd nümunələrinin bakterioloji analiz olunması üçün Gəncə şəhər "Gigiyena və Epidemiologiya Mərkəzi" ilə "Ümid" SİD arasında müqavilə imzalanmışdır. Aqro-İnformasiya Mərkəzinin dövrü nəşri olan "Sərvət" jurnalında Layihə Mütəxəssisi tərəfindən yazılmış material dərc olunmuşdur. Bu materialda layihənin əhəmiyyəti, hyata keçirilməsi və süd sektorun inkişafına göstərdiyi təsir öz əksini tapmışdır.

## “Ümid” SİD Coca-Cola ilə əməkdaşlığa başlamışdır

“Ümid” Sosial İnkişafa Dəstək İctimai Birliyi Coca-Cola Fondunun maliyyə dəstəyi ilə ***“Məktəblərdə su və kanalizasiya sistemlərinin bərpası, ekoloji güşənin yaradılması”*** layihəsinin icrasına başlamışdır. Layihə Bakı şəhəri Binəqədi rayonunun 4 orta məktəbində sanitar-kanalizasiya sisteminin təmir olunması və hər məktəbdə bir ədəd olmaqla dörd Ekoloji Guşənin yaradılmasını nəzərdə tutur. Layihə aşağıdakı öhdəliklərin reallaşdırılması vasitəsilə həyata keçiriləcəkdir:

- Məktəblərdə ekoloji maarifləndirmə tədbirlərinin həyata keçirilməsi;
- Məktəb rəhbərliyi ilə razılaşdırılmış qaydada nəzərdə tutulan təmir-bərpa işlərinin həyata keçirilməsi;
- Görülmüş işlərin müvafiq hökumət orqanlarına təhvil verilməsi.

Əvvəlcədən planlaşdırıldığı kimi, təmir işlərinə iki məktəbdə - Binəqədi rayonunda yerləşən 297 və 300 saylı orta məktəblərdə başlanmışdır. Hal-hazırda bu məktəblərdə təmir işləri davam etdirilir - şagirdlərin təhlükəsizliyini təmin etmək üçün tədbirlər görülmüş, təlimçi tərəfindən maarifləndirmə işləri aparılmışdır.



*297 saylı orta məktəb təmir zamanı*

## Açıq Cəmiyyət İnstitutu Yardım Fondu ilə əməkdaşlıq uğurla davam etdirilir

2008-ci ilin sonundan başlayaraq ACİ YF-nun maliyyə dəstəyi ilə Azərbaycanın da daxil olduğu “Qafqaz Təhsil Təşəbbüsü” çərçivəsində həssas uşaqların məruz qaldığı təhsil problemləri haqqında ictimai maarifləndirmə və sosial cəhətdən həssas uşaqların təhsil imkanlarının artırılması üzrə layihələr icra olunur. Bu layihələrin davamı olaraq, 2012-ci ilin yanvar ayından ACİ YF-nin maliyyə dəstəyi ilə “Qafqazda mədəniyyətlərarası əməkdaşlığa dəstək” və “Ümid” SİD İB-nin Məsləhətçi kimi çıxış etdiyi “Sabah Bugündən başlayır” layihələri icra olunmağa başlamışdır. Qafqazda mədəniyyətlərarası əməkdaşlığa nail olmaq üçün uşaqlar üçün beynəlxalq düşərgənin təşkili vəzifəsi qarşıya qoyulmuşdur.

Beynəlxalq düşərgənin keçirilməsi 5 əsas mərhələdən ibarətdir:

- Müxtəlif mədəniyyətlərdən olan uşaqlarla işləmək üçün peşəkar təlimçilərin hazırlanması
- Uşaqların beynəlxalq düşərgəyə hazırlanması
- Beynəlxalq düşərgənin təşkili
- Düşərgədən sonra mədəniyyətlərarası əməkdaşlığın davam etdirilməsi
- Görülən işlər barədə ictimaiyyətin məlumatlandırılması

Qaçqın Qadın və Gənclər Mərkəzində icma liderlərinin, valideynlərin iştirakı ilə beynəlxalq düşərgənin keçirilməsi, onun mahiyyəti, uşaqların və təlimçilərin seçimi prosedurları ilə bağlı görüş keçirilmişdir. Mart ayında, ACİ YF-nun maliyyə dəstəyi ilə həyata keçirilən “Qafqazda mədəniyyətlərarası əməkdaşlıq” proqramının iştirakçıları – “Ümid” SİD, “Buta” Humanitar Uşaq Fondu, “İnquşetiyanın müəllimlər və repetitorlar assosiasiyası” Regional İctimai təşkilatı və “Stimul” Çeçenistanın Regional İctimai təşkilatı tərəfindən düşərgəyə seçilən təlimçilərə, Rusiyadan dəvət olunmuş peşəkar psixoloq tərəfindən “Uyğunlaşmamış uşaq və yeniyetmələrin psixo-sosioloji reabilitasiyası” mövzuda 3 günlük təlim verilmişdir. Təlim zamanı psixo-sosioloji reabilitasiyanın üsulları və metodikaları barədə məlumat verilmiş və praktiki məşğələlər keçirilmişdir. Sonda düşərgə proqramının ilkin variantı hazırlanmışdır. Proqramı hazırlayarkən ötən ildəki düşərgənin təcrübəsi, təlimdə təklif olunan yeni metodikalar nəzərə alınmışdır.




*QQGM-də yay düşərgəsinin təşkili ilə bağlı keçirilən görüş*

## Ünvanlarımız


***Baş ofis:***
**Bakı şəhəri, Ə.Cavad küç.-7A**
**Tel./ Faks (+99412) 434 53 15; (+99412) 434 96 98**

***Bakı sahə ofisi:***
**Nərimanov r-nu., Orucəliyev küç.- Q-46**
**Tel: (+99412) 437 82 39**

***Sumqayıt sahə ofisi:***
**6-cı mkr-n, C. Məmmədquluzadə küç.**
**Tel: (+99418) 642 55 18**

***Bakı sahə ofisi:***
**Sahil qəs.,B.Əliyev küç., ev 3, mən. 14**
**Teı: (+99412) 446 41 26**

***Gəncə regional ofis:***
**Süleyman Rəhimov küç.-30**
**Tel: (+99422) 57 48 62**
**Katel: (+99912) 417 96 98**